**Xocalı soyqırımının on səkkizinci ildönümünün keçirilməsi barədə**

**Azərbaycan Respublikası təhsil nazirinin əmri**

Xocalı soyqırımının on səkkizinci ildönümünün təhsil müəssisələrində qeyd olunması məqsədilə

**ƏMR EDİRƏM:**

**1.** Xocalı soyqırımının on səkkizinci ildönümünün keçirilməsi ilə əlaqədar Təhsil Nazirliyinin tədbirlər planı təsdiq edilsin (əlavə olunur).

**2.** Naxçıvan MR təhsil naziri, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin, Gəncə Şəhər Təhsil İdarəsinin, rayon, şəhər təhsil şöbələrinin müdirləri, ali, orta ixtisas, texniki peşə təhsili müəssisələrinin rəhbərləri tədbirlər planının icrasını təmin etsinlər.

**3.** İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmr və tədbirlər planının "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını təmin etsin.

**4.** Ümumi şöbə (İ.Mirzəyev) əmr və tədbirlər planının çoxaldılıb yerlərə göndərilməsini təmin etsin.

**5.** Əmrin icrasına nəzarət nazir müavini E.Qasımova həvalə edilsin.

**Misir MƏRDANOV,**
**Azərbaycan Respublikasının təhsil naziri,**
**11 fevral 2010-cu il**

**Azərbaycan müəllimi.-2010.-19 fevral.-S.2.**